# UNUDULMAZ MUSA MİRZƏYEV,

## *yaxud həzin xatirələr işığında yada düşən notlar*



*Şəddat CƏFƏROV*
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Mənim həyatım kitablarla çox bağlıdır. Yeniyetməlik çağlarından üzü bəri əmək fəaliyyətim kitablar içərisində keçib. Ayrı-ayrı zamanlarda cəmiyyət içərisində səs-sədaya səbəb olan, sevilən, yaxud tənqid olunan mübahisələr doğuran kitabların bir çoxu mənim gözlərimin önündə və demək olar ki, öz iştirakımla dünyaya gəlib. Hər halda 20 yaşımdan - yəni 1960-cı ildən üzü bəri kitab nəşrinin inkişaf tarixini nəinki nəzərlərimlə müşahidə etmişəm, həm də bu tarixin içində olmuşam, bu tarixi əməli fəaliyyətimlə birgə yaşamışam. İndi dəqiq rəqəm də deyə bilərəm. 63 ildən çoxdur ki, mənim iştirakımla nəşr olunan kitablar cəmiyyətin mənəvi həyatında öz izini buraxıb. Bir çoxu əbədiyaşarlıq haqqı alıb.

Naşir üçün, əlbəttə, öz işini sevən naşir üçün, işini həyatının mənası hesab edən naşir üçün kitabların müəllifi qədər nəşr olunan ədəbi örnəklər əzizdir. Ona görə də mən nəşr etdiyim kitabların hər biri ilə bağlı xatirələrimi həzin duyğularla xatırlayanda məmnunluq hissi keçirirəm. Hətta köhnə kitablar satan bukinistlərin yanından keçəndə marağımı saxlaya bilmirəm. Dayanıb baxıram. Hətta nəşr etdiyim kitablardan bəziləri ilə rastlaşanda əlimə götürüb vərəqləyirəm. Mənə elə gəlir ki, həmin kitablar həyatımın keçmişi ilə bağlı müəyyən hadisə və əhvalatları səssiz-səssiz mənə danışır.

Bir sözlə, altı on illikdən çox müddət ərzində çoxlu kitablar toplamışam. Kitabxanamın zənginliyini yaradan bu nəşr nümunələrini üç qrupa ayırmaq olar. Bunlardan birinci qrupu mən özüm nəşr etdiyim kitablar təşkil edir. İştirakımla nəşr olunan həmin kitabların hərəsindən heç olmasa bir nüsxə saxlayıb öz kitabxanama qoymuşam. Həmin kitablarla məni mənəvi tellər bağlayır. Axı həmin kitabları mən hələ nəşr olmamış nüsxələrdə oxumuşam. Bəzən müəlliflərlə fikir mübadiləsi aparmışam. Mübahisələrin həlli çox vaxt poliqrafiya məsələləri ilə bağlı olub. Hər hansı bir kitabın məzmununa, həcminə görə seçilən poliqrafik formanı müəlliflərə izah eləməyə, fikrimin, qənaətimin doğruluğuna onu inandırmağa çalışmışam. Əlbəttə, demək olar ki, bu məsələlər əsasən mənim mülahizələrimlə həll olunub.

Kitabxanamda ikinci qrup zəngin bir sahə də var ki, buraya, ümumiyyətlə, dünya ədəbiyyatı klassiklərinin, siyasət adamlarının, tarixi şəxsiyyətlərin əsərləri daxildir. Görkəmli adamların həyatından bəhs edən kitabları, xüsusilə görkəmli siyasətçilərin, ictimai xadimlərin memuarlarını toplamağı da xoşlayıram. Buraya həm də yolum düşən xarici ölkələrdən alıb gətirdiyim kitablar da daxildir. Onları da hərdən vərəqləmək mənim üçün maraqlı təəssüratlar doğurur. Haradan aldığım, nə vaxt, hansı səfərdə əldə etdiyim... yadıma düşür. Təbiidir ki, belə xatirələr də insanın həyatına müsbət təsir göstərir. Mən həyatın gözəlliyini həm də elə kitabların mahiyyətində görürəm. Təsadüfi deyil ki, kitabın gözəlliyi haqqında da sonralar monoqrafiya yazmışam.

Kitabxanamda üçüncü bir qrup kitablar da var ki, bunlar da mənə çox əzizdir. Həmin kitablar ya müəlliflərin, ya da haqqında bəhs olunan şəxslərin öz avtoqrafları ilə, yəni müəllif yazısı ilə ünvanıma xoş sözlər yazılmış kitablardır. Doğrusu bu kitablar mənə çox əzizdir. Çünki həmin avtoqraflarda mən həm də həmin xatirə qeydlərini yazanların özlərini görürəm. Yazı xətləri əsasında onların təbiətlərini, düşüncələrini yaddaşımda bərpa edirəm. Bəzən olur ki, belə avtoqraflı kitablar mənə uzun illərin arxasında qalmış xatirələri yaddaşımda canlandırmağa kömək edir.

Həmin kitablardan biri ilə elə bu günlərdə rastlaşdım. Musa Mirzəyevin - görkəmli sənətçimiz, böyük ziyalı Musa Mirzəyevin haqqında yazılmış kitabın müəllifi sənətşünas, publisist Şəhla Həsənovadır.

Onun haqqında bir neçə kəlmə ilə oxucularımı da məlumatlandırmaq istərdim. Tərcümeyi-halına baxıram, həyat yolunu göstərilən faktlar əsasında təsəvvür etməyə çalışıram. Zəngin fakt yığını ilə qələmə alınmış tərcümeyi-hal qeydlərinə nəsə əlavə etməyə lüzum görmürəm. Olduğu kimi oxuculara çatdırmaq istəyimin əsasında dayanan həqiqət budur ki, Musa Mirzəyev kimi görkəmli sənət adamının həyat və yaradıcılıq yolunu kifayət qədər yüksək səviyyədə yaza bilən müəllifi qoy hər kəs yaxşı tanısın: **Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Şəhla Həsən qızı Həsənova Bakıda doğulub. 1974-cü ildə Bülbül adına Orta ixtisas musiqi məktəbini, 1979-cu ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tarix-nəzəriyyə fakültəsini bitirib. Həmin ildən BMA-nın musiqi tarixi kafedrasında çalışır. 1994-cü ildə namizədlik dissertasiyası müdafiə edərək sənətşünaslıq namizədi elmi dərəcəsini almış, 1995-ci ildən dosent kimi fəaliyyət göstərmişdir. Hazırda BMA-nın professoru vəzifəsində çalışır. Tarix-nəzəriyyə fakültəsi Elmi Şurasının elmi katibi, magistratura şöbəsinin müdiridir.**

**Ş.Həsənova tələbə elmi işlərinin Ümumittifaq müsabiqəsinin diplomatıdır. Bakı, Daşkənd, Almatı, Tbilisi, Xarkov və başqa şəhərlərdə keçirilən elmi konfranslarda məruzələrlə çıxış etmiş, Tələbə və gənclərin 12-ci Ümumittifaq Festivalının (1978) nümayəndəsi olmuşdur. O, muğama və xalq musiqisinə, Avropa, rus və Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunmuş 200-dən artıq elmi, tənqidi və publisistik məqalənin, “Musiqi palitrası” (2003), “Azərbaycanın elm və mədəniyyət xadimləri” silsiləsindən “Musa Mirzəyev. Biblioqrafiya” (2008) kitablarının, “Musiqi tarixindən mühazirələr. 1-ci hissə” adlı dərs vəsaitinin (2008) müəllifi, onlarca metodik iş və tədris proqramlarının tərtibçisidir. 20 il (1974-1994) ərzində Azərbaycan televiziyasında “Sehrli səslər evciyi” adlı uşaq musiqi proqramının ssenari müəllifi və aparıcısı olmuş, həmin verilişin 250-dən artıq buraxılışı efirə getmişdir. Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.** İnsafən, Şəhla Həsənova kitab üzərində çox məsuliyyətlə işləyib. Bu kitabın elmi redaktoru xalq artisti, sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabovdur. Rəyçilər AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor Rəna Məmmədova və xalq artisti, professor Azər Rzayevdir.

Musa Mirzəyev monoqrafiyasının bir nəşr nümunəsi kimi dəyəri nəzərə alınaraq Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası elmi şurasının 5 mart, 2008-ci il tarixli qərarı ilə çap olunub. Kitabın annotasiyasında oxuyuruq: *“Bu, Azərbaycan Respublikasının xalq artisti, “Şöhrət” ordenli bəstəkar Musa Abdulla oğlu Mirzəyevin həyat və yaradıcılığına həsr olunmuş ilk monoqrafiyadı. M.Mirzəyevin yaradıcılığının müxtəlif sahələrini geniş işıqlandıran bu ilk tədqiqatda bəstəkarın bir çox əsərləri ilk dəfə olaraq təhlil edilir, dəsti-xəttinin başlıca xüsusiyyətləri səciyyələndirilir və onun milli musiqimizin inkişafındakı rolu müəyyənləşdirilir. Kitabda M.Mirzəyevin həyat və fəaliyyətinə aid bir çox arxiv materialları ilk dəfə oxuculara təqdim edilərək şərh olunur. Monoqrafiya həm mütəxəssislər, həm də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur”.* Müəllif *“Musa Mirzəyev”* adlı monoqrafiyaya sadəcə tədqiqat əsəri kimi yanaşmır. O, faktlar üzərində məsuliyyətlə işləyir. Görkəmli bəstəkarın, böyük sənət xadiminin həyat və yaradıcılıq yolunu birər-birər izləyir. Gələcək nəsillər üçün örnək ola biləcək bir şəxsiyyətin kimliyini elmi-nəzəri şəkildə təqdim etməyə çalışır.




Şəhla Həsənova bir tədqiqatçı kimi belə əsərlərin dəyərini yaxşı bilir. Bu tipli mükəmməl əsərlər axı gələcək tədqiqatlar üçün də mənbə olur. Əsas istinad kimi diqqətdə saxlanılır. Ona görə də Şəhla Həsənovanın öz işinə məsuliyyətlə yanaşması əslində çox dəyərli bir həyat hekayətinin, zəngin bir ömür romanının təkcə publisistik yox, həm də elmi-nəzəri şəkildə yazıya gətirilməsidir.

Şəhla Həsənova kitaba *“Ön söz əvəzi”* qeydlərində yazır: *“Bizim müasirimiz olan, bu gün yaşayıb-yaradan bəstəkar haqda yazmaq, onun yaradıcılığını bütövlükdə araşdırıb təhlil etmək və müəyyən nəticələr çıxarmaq həm asandır, həm çətin. Asandır ona görə ki, tədqiqatçı üçün həmin bəstəkarın özü əvəzedilməz bir məlumat mənbəyi, maraqlı həmsöhbətdir və dəqiqləşdirmək istədiyi hər bir məqama aydınlıq gətirməklə müəllifin işini yüngülləşdirmiş olur. Çətindir ona görə ki, həmin bəstəkar bu gün də qızğın yaradıcılıq fəaliyyətindədir, sənət axtarışlarındadır. Bu sənət yolu onu yeni səmtlərə çəkib apara bilər, yeni tapıntılara gətirib çıxarar və o zaman, şübhəsiz ki, onun yaradıcılığının yenidən nəzərdən keçirilməsi və ümumiləşdirilməsi zərurəti yarana bilər. Bununla belə, uzun illərdən bəri fəaliyyətinin müxtəlif sahələrini araşdırdığım Musa Mirzəyevin dəst-xətti üçün səciyyəvi olan cəhətlər, ayrı-ayrı əsərlərində və bütövlükdə yaradıcılığında müşahidə etdiyim xüsusiyyətlər artıq bəstəkarın fərdi siması, özünəməxsusluğu barədə o dərəcədə dolğun təsəvvür yaradırdı ki, bunları bir araya gətirərək bu kitabı yazmağı qərara aldım. Musa Mirzəyevin həyat və yaradıcılığını işıqlandıran bu monoqrafiya bəstəkarın 75 illik yubileyinə kiçik hədiyyədir”.* Göründüyü kimi, müəllif hələ bəstəkarın sağlığında yazdığı əsərini onun 75 illik yubileyinə kiçik hədiyyə hesab edir. Söz yox, *“kiçik hədiyyə”* ifadəsini müəllif təvazökarlıqla işlətmişdir. Ancaq burada bir həqiqət də var. Axı Musa Mirzəyev elə görkəmli ziyalılarımızdandır ki, onun musiqi yaradıcılığının müxtəlif janrlarına ayrı-ayrı tədqiqatlar həsr olunmalıdır. Həqiqətən, əgər Musa Mirzəyevin həyat yolu yaxşı, əhatəli, yaradıcılığı dəqiq yanaşmalarla müxtəlif sahələr üzrə araşdırılsa, onda bir kitabxananın yaradılmasına şübhə yeri qalmaz.

Axı mən qeyd etdim ki, bu monoqrafiya görkəmli bəstəkarın sağlığında qələmə alınıb. Ona görə də xalqımızın böyük oğlu Musa Mirzəyev özü haqqında yazılmış həmin kitabı avtoqrafı ilə mənə hədiyyə etmişdi. Onun narın, səliqəli, incə xətlərlə yazdığı avtoqrafı oxuyuram: *“Millətimizin gözəl şəxsiyyəti, əziz və sevimli Şəddat bəyə Musa Mirzəyevdən kiçik bir xatirə. 8.III - 2014 il. Bakı şəhəri”.* Sonra da imza. Bu avtoqraf mənə çox şey deyir. Birinci növbədə Musa Mirzəyevin necə bir zəngin şəxsiyyət olması haqqında təəssürat dolu məlumat verir. O, mənim ünvanıma *“gözəl şəxsiyyət”*, *“əziz və sevimli”* epitetləri işlədir. Eyni zamanda dəyərli monoqrafiyanı da *“kiçik bir xatirə”* adlandırır. Əslində bu epitetlər həm də onun özünə aiddir. Böyük şəxsiyyətlər, xalqının sevimlisi olan insanlar başqalarına da yüksək hörmətlə yanaşmağı bacarırlar. Burada bir qədər fikir əhatəsindən çıxmaq istərdim. Axı Musa Mirzəyevgilin ailəsi ilə məni şəxsi münasibətlər, dostluq əlaqələri bağlayırdı.

Beləliklə, həyatımın daha qaynar çağlarına qayıdıram. 26 yaşımda o vaxt “26-lar” adına mətbəənin (sonralar 1 nömrəli mətbəə) baş mühəndisi vəzifəsində işləyirdim. Həmin mətbəədə baş mühəndis işləmək üçün vəzifəyə təyinat almağımın özü də ayrıca bir xatirədir. Sovet dövründə belə bir məsul vəzifəyə gənc mütəxəssisin təyinat alması o qədər də asan məsələ deyildi.

**(Davamı 11-ci səhifədə)**

# UNUDULMAZ MUSA MİRZƏYEV,

## *yaxud həzin xatirələr işığında yada düşən notlar*



*(Əvvəli 10-cu səhifədə)*

Mən ilk dəfə Qafqaz respublikalarında təcrübəsi olmayan axın xətlərinin quraşdırılması üçün təşəbbüs göstərmişdim. O vaxt müraciət etdiyim dairələr bu təşəbbüsün baş tutacağına şübhə etsələr də, imkan və şərait yaratdılar. Az vaxt içərisində bu yenilik mətbəənin işinə ciddi təsir göstərdi. Məhsuldarlıq heyrətamiz dərəcədə yüksək idi. Bu da respublikada böyük səs-sədaya səbəb oldu. 1966-cı ildən söhbət gedir. O vaxt bu illər Azərbaycanda yeni düşüncə tərzinin oyanışı kimi xarakterizə olunurdu. Yenilik qarşısıalınmaz şəkildə iqtisadiyyatda, hətta kənd təsərrüfatında, sənayedə açıq-aşkar duyulurdu. Bu yeniləşmə əslində düşüncələrdə də gedirdi. Mədəniyyətdə, incəsənətdə, xüsusilə ədəbiyyatda yeni bir ruh özünü göstərirdi. Məşhur 60-cılar nəsli məhz bu dövrdə formalaşmışdı. Əgər belə demək mümkünsə mənim də həyatımın yeniliklərlə dolu qaynar dövrü məhz bu zamanla çox bağlıdır.

Baş mühəndis kimi tətbiq etdiyim yeniliklər respublikada böyük əks-səda doğurdu. O dövrün çox nüfuzlu partiya və hökümət qəzeti *“Bakinskiy rabo-çi”*də mənim mətbəədə tətbiq etdiyim yeniliklərə bağlı geniş müsahibəm dərc olundu. Müsahibəni götürən qəzetin aparıcı müxbiri, tanınmış jurnalist, publisist Svetlana Mirzəyeva idi.

Müsahibə qəzetin birinci səhifəsində dərc olunmuşdu. Bu o demək idi ki, artıq mənim əməli fəaliyyətim hökümət və partiya rəhbərliyinin diqqətində idi. Müsahibənin adı indi də yadımdadır; *“Borcumuz gözəllik yaratmaqdır”*.

Bu, o vaxt idi ki, mətbəə tarixi binada yerləşirdi. Həmin bina xüsusi olaraq, 1926-cı ildə nəşriyyat, mətbəə və kitab ticarəti üçün nəzərdə tutulmuşdu. Həmin tarixi binanın görünüşü də açıq kitab şəklində tikilmişdi. Eyni zamanda həmin binada *“Azərnəşr”*, *“Gənclik”*, *“Qlavlit”*, *“Mədəniyyət evi”* *(klub)* *və eyni zamanda bizim “26-lar”* adına mətbəə də yerləşirdi. Çox təəssüf ki, bu mühüm mədəniyyət sahələri də dağıldı. İndi də həmin bina bərbad vəziyyətdə keçmiş haqqında öz hekayətini müşahidə edənlərə danışmaqdadır. Beləliklə, Svetlana Mirzəyevanın həmin müsahibəsi məni bu ailəyə, yəni Musa Mirzəyevgilin ailəsinə birdəfəlik bağladı.

İndi Şəhla Həsənovanın Musa Mirzəyev monoqrafiyasını vərəqlədikcə o illərin təəssüratları, eləcə də Musa Mirzəyevin yaradıcı şəxsiyyət kimi mənəvi mühiti gözlərimin önündə canlanır. Xalq artisti, dövlət mükafat laureatı professor Tofiq Quliyev Musa Mirzəyev haqqında yazıb: *“Musa Mirzəyev - yaradıcılığına böyük hörmət, daima maraqla yanaşdığım bir bəstəkar, sözün əsl mənasında musiqiçidir. Uzun illər boyu “Azərbaycan musiqisi” məfhumunu vətənimizdən çox-çox uzaqlarda ləyaqətlə anladıb onun şöhrətini artıran bəstəkarın musiqi irsi, tam qətiyyətlə deyə bilərəm ki, Azərbaycan musiqi mədəniyyətimizin dəyərli bir parçasına çevrilmişdir”.* Bu qeydlər təsadüfi bir sənətçi haqqında deyilmir. Axı Musa Mirzəyev xalq artisti, professor idi. Şöhrət ordenli bəstəkar kimi məşhurlaşmışdı. Onun böyük istedadını, zəngin yaradıcılığını görkəmli sənət korifeyləri çox yüksək dəyərləndiriblər. Kitabda sənət korifeylərindən Cövdət Hacıyevin, Fikrət Əmirovun, Fərhad Bədəlbəylinin, Vasif Adıgözəlovun, Azər Rzayevin Musa Mirzəyev haqqında çox dəyərli fikirləri verilib. Eləcə də monoqrafiyada dünya şöhrətli musiqi sənətinin daşıyıcısı olan xarici ölkələrin bəstəkarlarının da çox maraqlı fikirləri yer alıb.

Şəhla Həsənovanın monoqrafiyasında Musa Mirzəyevin tərcümeyi-hal qeydləri də maraq doğurur. Axı hər bir sənətkarın həyat yolu həm də yaşam məktəbidir. Bu mənada Musa Mirzəyev haqqında tərcümeyi-hal qeydləri də maraqla oxunur: *“Musa Mirzəyev 1933-cü il yanvar ayının 26-da Bakı şəhərində doğulub. Onun nə ata, nə də ana nəslində peşəkar musiqiçilər olmayıb. Lakin dünyaya göz açdığı gündən o, musiqiyə qarşı dərin məhəbbət ruhunda tərbiyə alıb. Atası - 1914-cü ildən Bakıda məskən salmış, əslən Lənkərandan olan, sadə sənətkar ailəsində böyümüş Abdulla kişi də, anası - Qubanın adlı-sanlı Hacıyevlər nəslinin nümayəndəsi, sonradan repressiyalar qurbanı olmuş Məşədi Nəsrullanın qızı Səkinə xanım da musiqinin vurğunu olmuşlar. Özü tarda və fortepianoda çalmağı bacaran Abdulla kişinin evində həmişə musiqi səslənərdi. Beş uşaq - dörd oğul və bir qız atası olan Abdullanın ən böyük arzusu bu idi ki, uşaqları da hansısa musiqi alətində yaxşı çala bilsin. Odur ki, böyük oğlu Musanın da, Sabirin, Kamilin, Tamillanın da ilk musiqi təhsilini o illərdə ən yaxşı musiqi müəllimi kimi tanınmış Leyla xanım Muradovaya etibar edir. Bu uşaqlar içərisində ömürlük musiqiyə bağlanan isə məhz Musa, bir də ailənin sonbeşiyi Arif olur. Ailə, Musanın məhz Leyla xanımın şagirdi olması üçün əlindən gələni etməyə hazır idi. Musa ilə məşğul olmağa razılıq verən Leyla xanımın zəhməti hədər getmir”.* Bu qeydlərdən də göründüyü kimi, Musa Mirzəyevin doğulub-böyüdüyü ailə mühiti Azərbaycan mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş edib. Şəhla Həsənovanın “Musa Mirzəyev” monoqrafiyası tədqiqatçıların diqqətini həmin görkəmli elm və mədəniyyət xadimlərinin həyat və yaradıcılığına da diqqəti cəlb edir.

Monoqrafiya kifayət qədər oxunaqlı bir dillə yazılıb. Təkcə elə kitabdakı başlıqlara nəzər salsaq, müəllifin mövzuya yanaşma tərzini də bütün aydınlığı ilə qavraya bilərik: *“Sehirli dünyaya açılan pəncərə”*, *“Ustadın öyrətdikləri”*, *“Axtarışlar, tapıntılar”*, *“Yaxın-uzaq diyarlarda sevilən musiqi”*, *“Üzü zirvəyə”*, *“Bəstəkar - vətəndaş”*, *“Kamillik”*, *“Orkestr əsərləri”*, *“Kamera instrumental yaradıcılığı”*, *“Fortepiano yaradıcılığı”*, *“Vokal yaradıcılığı”*, *“İran motivləri”*, *“Musa Mirzəyev tənqidçi-publisist kimi”* - bunlardan başqa kitaba bir neçə əlavələr də daxil edilib. Maraqlı fotoşəkillər də oxucuda görkəmli bəstəkarın həyatı ilə bağlı geniş təsəvvür yaradır. Hətta müəllif kitabda Musa Mirzəyevin bir sıra məqalələrindən parçalar da dərc edib. Geniş ədəbiyyat siyahısı verilib.

Mən bir neçə kəlmə *“İran motivləri”* mövzusu ilə bağlı bəzi məqamlara diqqəti cəlb etmək istərdim. Az-çox hər bir məlumatlı oxucu üçün *“İran motivləri”* adı müəyyən informasiya verir. Və biz Sergey Yeseninin parlaq obrazını düşüncəmizdə təzədən görürük. Məlumdur ki, Yesenin məşhur İran motivlərini Bakıda yaradıb. Bu silsilə dünya ədəbiyyatının, lirikanın ən dəyərli nümunələri kimi məşhurdur. Təsadüfi deyil ki, Yeseninin bu silsiləsini bir çox Azərbaycan şairləri dilimizə məhəbbətlə çeviriblər. Bəs necə olub ki, Musa Mirzəyev kimi bir bəstəkar da Sergey Yeseninin *“İran motivləri”*nə musiqi janrında müraciət edib. Əsas faktın mənbəyini Şəhla Həsənova belə qeyd edir: *“Musa Mirzəyevin vokal yaradıcılığının inci nümunələrindən biri “İran motivləri” adlı silsilədir. Müəllifin “İran motivləri”ni görkəmli rus bəstəkarı Georgi Sviridova həsr etməsi təsadüfi deyil, belə ki, əsər məhz onun tövsiyəsi ilə yazılmışdır. Vaxtı ilə “Mən Yeseninin bir çox şeirlərinə musiqi bəstələmişəm, lakin onun “İran motivləri” - sizin sahədir, sizlikdir” deyərək bəstəkarı həvəsləndirən G.Sviridovun bu arxayınlığının, şübhəsiz ki, müəyyən əsası var idi. “İran motivləri”nə məhz Musa Mirzəyevin müraciətinə xeyir-dua verən rus bəstəkarı bir tərəfdən öz həmvətəninin əsərinin qeyri-adiliyini, yəni bilavasitə Şərq aləmi ilə, Şərq mövzu və obrazları ilə bağlılığını nəzərə almışdı; digər tərəfdən isə uzun illərdən bəri dostluq münasibətində olduğu, istedad və sənətkarlığını yüksək qiymətləndirdiyi azərbaycanlı həmkarının peşəkarlığı ilə yanaşı, ona təbiətən xas olan şairanəliyə də bələd idi. Və o, yanılmamışdı. S.Yesenin şeiriyyatı ilə Musa Mirzəyevin xəfif lirikasının qovuşuğundan səmimiyyəti və musiqisinin gözəlliyilə heyran edən bir sənət nümunəsi meydana gəlir”.* Müəllif təkcə bu qeydlərlə kifayətlənmir. Eyni zamanda Musa Mirzəyevin *“İran motivləri”*nə müraciət etməsinin psixoloji köklərini də araşdırır. Məlum olur ki, bəstəkar özü də təbiətən şairanə bir yaradıcı olduğu üçün *“İran motivləri”*nə məftun olmuşdur. O, sadəcə *“İran motivləri”*ni musiqiyə köçürmür, bir insan təbiətinin poeziyada görünən tərəflərini musiqiyə gətirir. Bu zaman, şübhəsiz, onun yaratdığı musiqidə bəstəkarın özünün şərq ruhu da öz əksini tapır. Biz Musa Mirzəyevin *“İran motivləri”* ilə birgə musiqiyə çevrilmiş şərq düşüncəsində lirik obrazın mahiyyətini qavrayırıq. Silsilənin incə ruhu bəstəkarın musiqisində insan qəlbinə hakim kəsilir. Müəllifin qeyd etdiyi kimi *“özü üçün doğma, yaxın olan Şərq dünyasını, bu füsunkar aləmin obrazlarını Azərbaycan bəstəkarı sanki Yesenin mövqeyindən heyranlıqla seyr edir. Odur ki, əsərdə bəstəkarın bir vasitə kimi istifadə etdiyi rus oriyentalizmini xatırladan özünəməxsus bir üslublaşdırma əlamətləri də sezilir”*. Bircə onu əlavə edərdim ki, Şəhla Həsənovanın bu qeydləri də sanki musiqinin publisistik çalarda ifadəsidir. Vaxt həmişə sürətlə gedir.



Zaman bizi əbədiyyətə qovuşmuş olan insanlardan nə qədər uzaqlaşdırırsa, bir o qədər də ruh, mənəviyyat baxımından doğmalaşdırır. Axı söz-sənət, musiqi inciləri yaratmış insanları zaman keçdikcə daha yaxından qavramaq mümkün olur. Şəhla Həsənovanın *“Musa Mirzəyev”* monoqrafiyası çox dəyərli tədqiqat əsəridir. Çünki kitabda görkəmli bəstəkarın əsərləri mütəxəssis mövqeyindən araşdırılır. Ayrı-ayrı hissələrdə dərin nəzəri təhlillər oxucunu razı salır. Onu da qeyd edim ki, bu kitabın hər bir hissəsi yazıçıdan, publisistdən, ədəbi-tənqidi münasibət göstərən hər hansı bir müəllifdən dərin yanaşma tələb edir. Mən bu qeydləri daha geniş və əhatəli yaza bilərdim. Ancaq oxucu üçün həm elmi əsər, həm də onun ədəbi qəhrəmanı görkəmli bəstəkar haqqında müəyyən təsəvvür yaratmağın bəs etdiyini düşünürəm.

Musa Mirzəyev zaman ötdükcə xalqımızın yaddaşına təzədən qayıdacaq. Onun ölməz sənəti insanları yaşamağa, yaratmağa çağıracaq. Musa Mirzəyevin ölməz musiqisində sözün və səsin vəhdəti var. Şərq düşüncəsində belə bir ifadə var: İnsan elə səsdən və sözdən ibarətdir.

Bizdən ayrılıb gedənləri biz necə uca tuturuqsa, bizdən sonra gələnlər də bizə elə həmin ucalıq mövqeyindən yanaşacaq. Azərbaycanın zəngin mənəvi həyatı elə varisliklə yaşarlıq qazanır.

**16.01.2023**